

*Fərəc Fərəcov*

# SƏN OLMASAYDIN

## GÖZƏLLİK ZİRVƏSİ

Gözəlliyə ünvanlanıb yurdumuz,
Keşiyində keşik çəkir ordumuz.
Yorulmayır çalışmaqdan qolumuz
Tuş eyləyir ucalığa həvəsi,
Yaradılıb gözəlliyin zirvəsi.

Yüksəlişdən vücudum gəlir coşa,
Bu yerlərdə ağılla zəhmət qoşa
Düşünən baş, quran əllər, min yaşa,
Düşməninə od püskürür nəfəsi,
Yaradılıb gözəlliyin zirvəsi.

Vəsf etməyə qələm aciz, sözüm çox,
Ayrı düşsəm, ayrılığa dözüm yox.
Hələ səndə gözə dəyən izim yox
Hər addımda gəl-gəl deyən guşəsi,
Yaradılıb gözəlliyin zirvəsi.

Öz-özünə yaranmayıb bu büsat,
Ulu rəhbər arzusudur qur, yarat.
İndi yurdum bütün yurdlardan abad
Heyran edir Naxçıvanım hər kəsi,
Yaradılıb gözəlliyin zirvəsi.

## SƏN OLMASAYDIN

Mehvərindən qopurdu düşüncəmiz, ağlımız
Tük üstə əsim-əsim əsirdi varlığımız.
Hara gedir bu diyar, hara gedir bu ölkə?
Gizlində gəzinirdi cəllad tək qara kölgə
Sən olmasaydın.

Xəyanət toxumları səpilirdi ölkəyə.
Yatmış qeyrətimizi yoxdu kimsə silkəyə
Əlifbadan bixəbər nadan keçirdi başa,
Ümidlər əriyirdi, Inam dönürdü daşa
Sən olmasaydın.

Qulaqlara dəyirdi hər gün qorxunc sədalar,
Adiləşirdi artiq nahaq qanlar, qadalar.
Açılırdı səhərlər qara tabut səsinə
Bürünürdü asiman analar naləsinə
Sən olmasaydın.

Zərrələrə bölünmək sualı çıxdı üzə
"Ölüm" "Qalım" Nidası-dayandılar diz-dizə
Aman! Nələr gəlirdi millətimin başına
Min oyun açılırdı torpağına, daşına
Sən olmasaydın.

Sahib çıxa bilmirdi haqlı olan haqqına,
Kürsülər verilirdi qeyrətsizə, satqına.
Məkrli düşmənimiz hay salırdı dünyaya,
"Ahları" "Nalələri" çatırdı yerdan Aya
Sən olmasaydın.

Alimlər, istedadlar basılırdı qınına.
Kələkbazlar, oğrular girmiş mələk donuna
Yox idi soraq verən düzlükdən, ədalətdən,
Görən nə istəyirlər, bəs bu yazıq millətdən
Sən olmasaydın.

Xainlərin niyyəti son məqama çatırdı,
Qardaş silah çevirib qardaşına atırdı
Tanrı səni yetirdi, bəxş etdi bu diyara.
Yetişdin, məlhəm oldun ah-naləyə, haraya.

Qayıtdın, qayıdışın sipər çəkdi ölümə,
Yenidən gülüş səsi qonaq oldu elim?
Ümidlər çözələndi, nəğmə dedi dodaqlar,
Dalğalandı hər yerdə ay-ulduzlu bayraqlar.

Yaranmazdı bu dövran, olmazdı bu günümüz.
Olmazdı əbədilik toyumuz, düyünümüz
Sən olmasaydın!
Sən olmasaydın!

## HAYDI, İRƏLİ !

Qaldın yollar ayrıcında
Yandın xəyanət saçında.
Kəsilmişdi əlacın da...
Yola saldın sərt illəri,
Vətənim, haydı, irəli!

Sənət nədir? Yalan olmuş.
Mənəviyyat talan olmuş.
Keçən keçmiş, olan olmuş,
Unutmayaq o günləri,
Vətənim, haydı, irəli!

Yetər bəsdi, qurbanların,
Töküldü nahaq qanların.
Getdi saysız cavanların,
Səslə bütün igidləri.
Vətənim, haydı, irəli!

Bu gün ordun, qüdrətin var.
Sərvətin var, hörmətin var.
Tanrı sənə olacaq yar.
Sınacaq düşmənin beli,
Vətənim, haydı, irəli!

Qoca, cavan-bir əsgərik
Cəsur, qorxmaz, nər əsgərik.
Uğrunda candan keçərik
Üstümüzdə Heydər əli.
Vətənim, haydı, irəli!
Vətənim, haydı, irəli!